**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# "Qlobal maliyyə böhranının beynəlxalq iqtisadi inteqrasiya proseslərinə təsirinin qiymətləndirilməsi"

İxtisas: 5310.01- Dünya iqtisadiyyatı

Elm sahəsi: İqtisad Elmləri

İddiaçı : **Əhliman Yaşasif oğlu Abbasov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI 2023**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq İqtisadiyyat" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru
**Müslüm Azad oğlu İbrahimov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
**Mayis Gülalı oğlu Gülalıyev**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Gülnar Xanlar qızı Səmədova**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Jalə Bayram qızı Dadaşova**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunda fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Əməkdar elm xadimi
iqtisad elmləri doktoru, professor
**Yadulla Həmdulla oğlu Həsənli**

Dissertasiya şurasının
elmi katibi: iqtisad elmləri namizədi
**Rəşad Aktiv oğlu Hüseynov**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, dosent
**Müşfiq Yelmar oğlu Quliyev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi;**

Son onillikdə beynəlxalq iqtisadi inteqrasiyanın inkişaf sürətinin zəifləməsi, hətta bir çox hallarda əks-inteqrasiya meyllərinin güclənməsi tendensiyaları görülməkdədir. Ölkələr aktiv şəkildə ticarət məhdudlaşdırıcı siyasətlərdən istifadəyə üstünlük verir, hətta ABŞ və Çin kimi nəhəng iqtisadiyyatlar "ticarət müharibələri" və "texnoloji müharibələr" çərçivəsində qarşı-qarşıya gəliblər. Eyni zamanda, artan məhdudiyyətlərin nəticəsində ölkələr arasında kapital hərəkətinin zəifləməsi, ölkələrin xaricdə fəaliyyət göstərən şirkətlərini geri qaytarmağa çalışmasını da qeyd edə bilərik. Bu dövrdə bir sıra ölkələr immiqrasiya siyasətlərini də sərtləşdirməyə başlamışlar. Ümumilikdə dünya iqtisadiyyatında son onillikdə iqtisadi inteqrasiyanın yavaşladığı, bir çoxlarına görə isə beynəlxalq iqtisadi dezinteqrasiya prosesinin meydana çıxdığı müşahidə edilməkdədir.

Təbii ki, beynəlxalq iqtisadi inteqrasiyanın zəifləməsi, ölkələrin iqtisadi proteksionizmə meyllənməsi dünya iqtisadi inkişafı, xalqların rifahı üzərində ciddi məhdudiyyətlər ortaya çıxarmaqdadır. Bunun üçün bu prosesin ortaya çıxmasına səbəb olmuş amillərin müəyyən edilməsi əhəmiyyət kəsb edir. Beynəlxalq iqtisadi inteqrasiyanın zəifləməsinin kökündə dayanan amillərin təsir miqyasının qiymətləndirilməsi gələcəkdə iqtisadi inteqrasiya prosesinin sürətləndirilməsi üçün elmi bazanın formalaşması baxımından zəruridir. Bu baxımdan son illərdə baş verən ən ciddi iqtisadi hadisə olan 2008-2009 qlobal maliyyə böhranının beynəlxalq iqtisadi inteqrasiya proseslərinin zəifləməsinə göstərdiyi təsirin səviyyəsinin və istiqamətlərinin müəyyənləşdirilməsi elmi olaraq əhəmiyyət daşıyır.

Beynəlxalq iqtisadi inteqrasiya proseslərinin inkişaf xüsusiyyətləri öncəki bir sıra ədəbiyyatların araşdırma mövzusu olmuşdur. Beynəlxalq iqtisadi inteqrasiya proseslərinin nəzəri xüsusiyyətləri, imkan və çətinlikləri J.Tinbergen, F.Maçlup, F.Kahnert, V.Molle, G.Mürdal, B.Balassa, C.Holtsmann, A.M.El-Aqraa, M.Feldşteyn, R.C.Hine kimi müəlliflər tərəfindən

araşdırılmışdır.[1] Son illər bir sıra başqa müəlliflər beynəlxalq iqtisadi inteqrasiya proseslərinin böhran sonrakı dövrdəki xüsusiyyətlərini araşdırmışlar. P.Leyn və digərləri maliyyə böhranından sonra qlobal maliyyə inteqrasiyasında baş verən dəyişiklikləri araşdırmışlar.[2] D.Rodrik son illərdə beynəlxalq iqtisadi iqtisadi inteqrasiya əleyhinə yüksələn populizm və milliyyətçiliyin xüsusiyyətlərini təqdim etmişdir.[3] K.H.O'Rourke isə öz məqaləsində müxtəlif dövrlərdə meydana çıxan anti-qlobalist cərəyanların xüsusiyyətləri və nəticələrini göstərmişdir.[4] L.Pastor və P.Veronesi beynəlxalq iqtisadi inteqrasiya əleyhinə populist iqtisadi milliyyətçiliyin yüksəlişinə təsir edən amillərin tədqiqatını aparmışlar.[5] S.J.Evenett maliyyə böhranından sonrakı dövrdə qlobal iqtisadi inteqrasiya əleyhinə yüksələn proteksionizmin miqyası barədə tədqiqatlar aparmışdır.[6]

Bu dissertasiya araşdırmasının hipotezi ondan ibarətdir ki, məhz maliyyə böhranı və onun doğurduğu siyasi-iqtisadi dəyişikliklər beynəlxalq iqtisadi inteqrasiya proseslərinin inkişafına mənfi təsir göstərmişdir. Bu təsir təkcə qısa dövrlə məhdudlaşmayıb, uzunmüddətli dövrdə də beynəlxalq iqtisadi inteqrasiya proseslərinin inkişaf tempini zəiflətmişdir.

**Tədqiqatın obyekti** kimi beynəlxalq iqtisadi inteqrasiya prosesləri seçilmişdir.

**Tədqiqatın predmetini** qlobal maliyyə böhranının, eləcə də, böhrana cavab olaraq həyata keçirilən proteksionist siyasətlərin

---

[1] Jovanovic, M.N., (1998), "International Economic Integration Limits and Prospects", London: Routledge.
[2] Lane, P.R., Milesi-Ferretti, G.M, (2017), International Financial Integration in the Aftermath of the Global Financial Crisis, IMF Working Paper, WP/17/115
[3] Rodrik, D., (2018), "Populism and the economics of globalization," Journal of International Business Policy, vol 1(1-2), p.12-33
[4] O'Rourke, K.H., (2019), "Economic History and Contemporary Challenges to Globalization," The Journal of Economic History, Cambridge University Press, vol. 79(2), p.356-382.
[5] Pastor, L., Veronesi, P., (2018) "Inequality Aversion, Populism, and the Backlash Against Globalization," NBER Working Papers 24900, National Bureau of Economic Research, Inc.
[6] Evenett, S.J., Fritz, J., (2015), The Tide Turns? Trade, Protectionism, and Slowing Global Growth, The 18th Global Trade Alert Report, CEPR Press

beynəlxalq iqtisadi inteqrasiya prosesləri üzərindəki təsirinin miqyasının və istiqamətlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri;**

Bu tədqiqatın məqsədi 2008-2009 qlobal maliyyə böhranının beynəlxalq iqtisadi inteqrasiya proseslərinə təsirini qiymətləndirməkdir. Buradakı təhlil təhlil qlobal miqyasda çoxtərəfli ticarət, maliyyə inteqrasiyası və miqrasiya proseslərini əsas alaraq həyata keçirilmişdir. Tədqiqat böhrana cavab olaraq həyata keçirilən proteksionist siyasətlərin iqtisadi inteqrasiya prosesləri üzərindəki təsirlərinin empirik qiymətləndirməsini də təqdim edir.

Tədqiqatın məqsədinə əsaslanaraq dissertasiya işinin qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- Beynəlxalq iqtisadi inteqrasiya əleyhinə son illərdə yüksələn iqtisadi milliyətçiliyin 2008-2009 qlobal maliyyə böhranı ilə mümkün əlaqəsinin araşdırılması.
- Böhrandan sonrakı dövrdə beynəlxalq iqtisadi inteqrasiya proseslərində - ticarət, maliyyə və miqrasiya münasibətlərində - baş verən dəyişikliklərin təhlilinin aparılması.
- Maliyyə böhranına cavab olaraq həyata keçirilən proteksionist siyasətlərin sistemli təhlini apararaq böhrandan sonra qlobal proteksionizmin inkişaf səviyyəsini müəyyənləşdirmək;
- Böhrandan sonra tətbiq edilən proteksionist siyasətlərin beynəlxalq iqtisadi inteqrasiya proseslərinə təsirinin araşdırılması;

**Tədqiqat metodları;**

Tədqiqat zamanı irəli sürülən tədqiqat vəzifələrinin yerinə yetirilməsi üçün elmi abstraksiya, məntiqi əsaslandırma, ekonometrik və riyazi modelləşdirmə, empirik təhlil metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**;

- Tədqiqat zamanı həyata keçirilən qiymətləndirmə böhranın beynəlxalq iqtisadi inteqrasiya prosesləri üzərində mənfi təsirinin olduğunu təsdiqləmişdir. 2008-2009 maliyyə böhranının beynəlxalq ticarət inteqrasiyası və beynəlxalq maliyyə inteqrasiyası üzərində həm qısa dövrdə, həm də uzun dövrdə mənfi təsir göstərdiyi məlum olmuşdur.

- 2008-2009-cu il qlobal maliyyə böhranının doğurduğu iqtisadi, sosial və ictimai şərtlər qlobal olaraq, xüsusən də dünyanın iri iqtisadiyyatlarında, proteksionist siyasətlərin tətbiqini artırmış, iqtisadi liberallaşma meyllərini zəiflətmişdir.

- Böhrandan sonrakı dövrdə "G20" iqtisadiyyatları tərəfindən tətbiq edilən proteksionist siyasətlər bu ölkələrin iqtisadi böyümə templəri üzərində mənfi təsir göstərmişdir. Bu dövrdə tətbiq edilən liberallaşdırıcı siyasətlər iqtisadi böyümə templəri üzərində müsbət təsirə malik olmuşdur.

- Lakin, böhrandan sonra qlobal ticarətin zəifləməsində əsas amil birbaşa olaraq proteksionist siyasətlərin sayındakı artım yox, iqtisadi böyümə templərində və liberallaşma meyllərində baş verən zəifləmə olmuşdur.

- Böhrana cavab olaraq tətbiq edilən proteksionist siyasətlər ticarətin zəifləməsinə təsir göstərən əsas amil olmasa da, idxal istiqamətlərində dəyişikliklərə səbəb olmuşdur. Bu dövrdə yüksələn proteksionizm "G20" iqtisadiyyatlarının yüksək gəlirli ölkələrdən etdiyi idxalın payını azaltmışdır. Eləcə də, bu dövrdə "G20" üzvü olan iqtisadiyyatlar tərəfindən tətbiq edilmiş proteksionist siyasətlər Avropa və Mərkəzi Asiya, Şimali Afrika və Orta Şərq, Cənubi Asiya regionlarının aşağı və orta gəlirli ölkələrindən edilən idxalın payı üzərində mənfi təsiri olmuşdur.

- Lakin, böhran sonrakı dövrdə tətbiq edilən proteksionist siyasətlər "G20" ölkələrinin Şərqi Asiya və Sakit Okeanı hövzəsi regionunun aşağı və orta gəlirli ölkələrindən etdiyi idxalın payının artması istiqamətində təsir göstərmişdir.

**Tədqiqatın elmi yeniliyi;**

Tədqiqatın elmi yeniliyi aşağıdaklardan ibarətdir:

- Böhran ortaya çıxmasından sonra tətbiq edilən proteksionist siyasətlər "G20" iqtisadiyyatları nümunəsində iqtisadi böyümə templəri üzərində mənfi təsir göstərmişdir. Bu dövrdə tətbiq edilən liberallaşdırıcı siyasətlər isə iqtisadi böyümə üzərində müsbət təsirli olmuşdur.
- Post-böhran dövründə tətbiq edilən proteksionist siyasətlərin idxalın illik artım səviyyəsi üzərindəki təsiri "G20"

iqtisadiyyatları nümunəsində qiymətləndirilmiş və bu təsirin statistik olaraq əhəmiyyətli olmadığı müəyyən edilmişdir;

- Ancaq, 2009-2020-ci illər arasında tətbiq edilən proteksionist siyasətlər ticarət xəttləri üzərində təsirli olmuşdur. Bu siyasətlər "G20" ölkələrinin yüksək gəlirli ölkələrdən, Avropa və Mərkəzi Asiyanın, Şimali Afrika və Orta Şərqin, Cənubi Asiyanın aşağı və orta gəlirli ölkələrindən etdiyi idxalın payına mənfi təsir göstərmişdir.
- Qeyd edilən dövrdə tətbiq edilən proteksionist siyasətlər "G20" iqtisadiyyatlarının Şərqi Asiya və Sakit Okean regionunun aşağı və orta gəlirli ölkələrindən etdiyi idxalın payı üzərində müsbət təsir göstərmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti;**

Tədqiqat işi son illər beynəlxalq iqtisadi inteqrasiya proseslərinin inkişaf tempinin zəifləməsində təsirli olan amillərin rolunun müəyyənləşdirilməsində əhəmiyyət daşıyır. Aparılan qiymətləndirmələr böhrandan sonra yüksələn proteksionizm və zəifləyən liberallaşma meyllərinin iqtisadi böyümə templəri, beynəlxalq ticarətin artım səviyyəsi və ticarət xəttləri üzərindəki təsirinin miqyasını təqdim edir.

**Aprobasiyası və tətbiqi;**

İşin əsas müddəaları beynəlxalq elmi-praktiki konfranslarda məruzə və müzakirə edilmişdir. Mövzu ilə bağlı 1 xarici, 4 yerli elmi jurnalda məqalə nəşr edilmişdir.

1. Abbasov, A., Pooled Mean Group Approach to Test the Determinants of Financial Integration: Evidence From OECD and G20 Countries, Research in World Economy, Vol 10, No 3, 2019, pp. 366-370
2. Abbasov, Ə., Böyük Ressesiyadan sonra qlobal maliyyə inteqrasiyası, Azərbaycanın Vergi Jurnalı, № 1, 2019, səh. 97-108
3. Abbasov, Ə., 2008-2009 qlobal maliyyə böhranından sonra qlobal ticarət niyə zəifləmişdir?, Azərbaycanın Vergi Jurnalı, № 2, 2018, səh. 99-110

4. Abbasov, Ə., 2008-2009 qlobal maliyyə böhranından sonra iqtisadi qloballaşma, Azərbaycanın Vergi Jurnalı, № 1, 2020, səh. 91-100
5. Abbasov, Ə., 2008-2009-cu il maliyyə böhranının iqtisadi millətçiliyin yüksəlməsinə təsiri, UNEC Elmi Xəbərləri, İl 8, Cild 8, aprel-iyun, 2020, səh. 112 – 122
6. Abbasov, A., Testing the Impact of Global Financial Crisis on Global Trade Integration, Book of Proceedings of 51st International Scientific Conference on Economic and Social Development – Rabat, 26-27 March 2020, pp. 624-631
7. Abbasov, A., Empirical Analysis of the Impact of 2008-2009 Economic Crisis on Immigration Tendencies: Case Of OECD Countries, Book of Proceedings of 37th International Scientific Conference on Economic and Social Development – "Socio Economic Problems of Sustainable Development", Baku, 14-15 February 2019, pp.764-772
8. Abbasov, Ə., Post-böhran dövründə qlobal ticarət inteqrasiyasının təhlili, Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransı, 2018.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı;**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq İqtisadiyyat kafedrasının nəzdində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.**

Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 7 səhifə, 13061 işarə, I fəsil – 32 səhifə, 58612 işarə, II fəsil – 58 səhifə, 98673 işarə, III fəsil – 31 səhifə, 43023 işarə, nəticə və təkliflər– 3 səhifə, 4533 işarə, istifadə olunmuş ədəbiyyat siyahısı – 8 səhifə, 15371 işarə, əlavə 28 səhifə, 32575 işarədən ibarət olmaqla, dissertasiyanın ümumi həcmi 172 səhifə, 265897 işarədir.

## DİSSERTASİYA İŞİNİN STRUKTURU

MÜNDƏRİCAT

Giriş
I Fəsil. Beynəlxalq iqtisadi inteqrasiya proseslərinin nəzəri aspektləri və müasir inkişaf mərhələsinin xüsusiyyətləri
1.1. Beynəlxalq iqtisadi inteqrasiya proseslərinə dair nəzəri-konseptual əsaslar
1.2. Beynəlxalq iqtisadi inteqrasiya proseslərinin tarixi dövrlər və regionlar üzrə xüsusiyyətləri
1.3. Post-böhran dövründə beynəlxalq iqtisadi inteqrasiyaya qarşı yüksələn iqtisadi milliyyətçilik

II Fəsil. 2008-2009 qlobal maliyyə böhranından sonra beynəlxalq iqtisadi inteqrasiya proseslərinin təhlili
2.1. 2008-2009 qlobal maliyyə böhranının yaranma səbəbləri və nəticələrinin təhlili
2.2. 2008-2009 qlobal maliyyə böhranının beynəlxalq maliyyə inteqrasiyasına təsirinin təhlili
2.3. Qlobal maliyyə böhranın ortaya çıxmasından sonra qlobal ticarət inteqrasiyası və qlobal miqrasiya proseslərinin təhlili
2.4. Böhrandan sonrakı dövrdə regiondaxili və regionlararası inteqrasiya proseslərində baş verən dəyişikliklərin dinamikası

III Fəsil. 2008-2009 qlobal maliyyə böhranının beynəlxalq iqtisadi inteqrasiya prosesləri üzərindəki təsirinin empirik qiymətləndirilməsi
3.1. Qlobal maliyyə böhranının qlobal maliyyə və ticarət inteqrasiyası proseslərinə təsirinin ekonometrik qiymətləndirilməsi
3.2. Böhran sonrakı dövrdə yüksələn proteksionizmin təsirlərinin qiymətləndirilməsi
3.3. 2008-2009 maliyyə böhranının beynəlxalq miqrasiyaya təsirinin ekonometrik qiymətləndirilməsi

Nəticə və təkliflər
İstifadə edilmiş ədəbiyyat siyahısı
Əlavələr

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, aprobasiyası və tətbiqi və s. öz əksini tapmışdır.

Dissertasiya işinin **"Beynəlxalq iqtisadi inteqrasiya proseslərinin nəzəri aspektləri və müasir inkişaf mərhələsinin xüsusiyyətləri"** adlanan birinci fəslində beynəlxalq iqtisadi inteqrasiya proseslərinin nəzəri-konseptual çərçivəsi, beynəlxalq iqtisadi inteqrasiya proseslərinin tarixi dövrlər və regionlar üzrə təhlili, post-böhran dövründə beynəlxalq iqtisadi inteqrasiyaya qarşı yüksələn iqtisadi milliyyətçiliyin təhlili təqdim edilmişdir.

İqtisadi inteqrasiya ilə bağlı ədəbiyyatlarda müxtəlif müəlliflər bu terminlə bəzi fərqliliklərlə oxşar prosesi ifadə etmişlər. Bəzi müəlliflər inteqrasiya dedikdə sadəcə ölkələrin məhsul və xidmətlər bazarlarının yaxınlaşmasını, bəziləri isə bununla yanaşı istehsal amillərinin rahat hərəkətini də nəzərə alır. Bəzi müəlliflər isə iqtisadi inteqrasiya prosesinin tərkibində iqtisadi siyasətlərin koordinasiyası və institutsional şərtlərin eyniləşdirilməsini də qeyd edirlər. Bu dissertasiyada istifadə edilən iqtisadi inteqrasiya anlayışı isə ölkələr arasında məhsul və xidmətlərin, kapitalın və əməyin hərəkət səviyyəsinin genişlənməsini nəzərədə tutur. Hal-hazırda iqtisadi inteqrasiya prosesi iki səviyyə- qlobal və regional müstəvidə inkişaf etməkdədir. Bu baxımdan iqtisadi inteqrasiya istiqamətində yazılan ədəbiyyatların bir hissəsi prosesi regional, digər hissəsi isə qlobal miqyasda dəyərləndirmişlər. Bu baxımdan regional iqtisadi inteqrasiya və qlobal iqtisadi inteqrasiya anlayışlarının fərqləndirilməsi də zəruridir. Qlobal iqtisadi inteqrasiya və ya beynəlxalq iqtisadi inteqrasiya anlayışlarını Dani Rodrik (2000), Martin Feldstein (2000), Michael Mussa (2000), Milan Brahmbhatt (1998) kimi bu sahədə tanınmış iqtisadçılar öz yazılarında qloballaşma və ya iqtisadi qloballaşma anlayışları ilə eyni mənalarda istifadə etmişlər. Michael Mussa öz yazısında iqtisadi inteqrasiyanın əsas istiqamətləri kimi insan miqrasiyası, məhsul və xidmətlərlə ticarəti, kapitalın hərəkəti və maliyyə bazarlarının inteqrasiyasını təqdim edərək onlara təsir göstərən amillərin təhlilini aparmışdır.

Rodrik beynəlxalq iqtisadi inteqrasiyanı dünya üzrə məhsul və xidmətlər, istehsal amilləri bazarlarının inteqrasiyası kimi təqdim edir.[7]

Sənaye inqilabı qlobal iqtisadi inteqrasiya prosesinin inkişafının yeni mərhələyə qədəm qoymasına səbəb olmuşdur. Bütövlükdə, 19-cu əsrin ikinci yarısı qlobal iqtisadi inteqrasiyanın yüksəlişi dövrü olmuşdur. İqtisadi qloballaşmanın bu inkişaf mərhələsi birinci dünya müharibəsinin ortaya çıxması ilə dayanmışdır. 2-ci Dünya Müharibəsindən sonra isə ölkələr arası iqtisadi əlaqələr tədricən bərpa olmağa başlamışdır. Müharibədən sonra nəqliyyat və kommunikasiya texnologiyalarında baş verən irəliləyişlər ölkələr arası iqtisadi əlaqələri yüksəltmişdir. Bu dövrdə texnoloji yeniliklərlə yanaşı, dünya ölkələri arasında yaranan nisbi sülh beynəlxalq iqtisadi inteqrasiyasının tədricən dirçəlməsinə zəmin yaratmışdır. Lakin, həmin dövr aktiv müharibə hallarının az olmasına baxmayaraq, dünya ölkələri arasında kapitalist-sosialist sistemləri çərçivəsində qütbləşmə və qütblərarası "Soyuq Müharibə" dövrü olmuşdur. Nəqliyyat və kommunikasiya sahəsində baş verən irəliləyişlər, tələfatlı müharibələrin yoxluğu qlobal inteqrasiyanı nə qədər stimullaşdırsa da, "Soyuq Müharibə" iqtisadi qloballaşmanın sürətlənməsində ciddi məhdudiyyət idi. Bu baxımdan Soyuq Müharibə dövrünün bitməsi beynəlxalq iqtisadi inteqrasiya proseslərinin daha sürətli inkişaf mərhələsinə qədəm qoymasına imkan yaratmışdır. Soyuq Müharibənin bitməsi və 1990-cı illərin əvvəllərində SSRİ-nin çöküşü ilə kommunist blokuna üzv ölkələrin də bazar iqtisadiyyatı modelinə keçidi başlamış oldu. Bazar iqtisadiyyatı modelinə keçid edən post-kommunist ölkələrinin bazarlarının kapitalist ölkələrində istehsal olunan məhsullara və xarici kapitala açılması beynəlxalq iqtisadi inteqrasiyanın miqyasının genişlənməsinə səbəb oldu. Lakin, 2008-ci ildən etibarən beynəlxalq iqtisadi inteqrasiya proseslərinin sürətli yüksəlişi sonlanmış oldu. Bütövlükdə 21-ci əsrdə beynəlxalq inteqrasiya proseslərini 3 şərti mərhələyə ayırmaq olar: 1) 2001-2007-ci illər arasında sürətli

---

[7] Rodrik, D., (2000), "How Far Will International Economic Integration Go?" , Journal of Economic Perspectives, Volume 14, Number 1, pp.177–186

yüksəliş dövrü; 2) 2007-2009-cu illərdə kəskin geriləmə dövrü 3) 2009-cu ildən sonra dəyişkən və qeyri-stabil inkişaf dövrü.

Qrafik 1. Beynəlxalq ticarət və maliyyə inteqrasiyasının səviyyəsini təqdim edən indekslər, 1970-2018




Mənbə: KOF Globalisation index- 2020

Qrafik 2. Beynəlxalq iqtisadi inteqrasiya prosesləri, 2001-2019




Mənbə: "DHL Connectedness Index"-2020

Böyük Ressesiyanın ortaya çıxardığı iqtisadi təlatümlər və böhranın doğru idarə edilməməsi, bir çox ölkələrdə, ancaq xüsusilə inkişaf etmiş qərb ölkələrində beynəlxalq iqtisadi inteqrasiya əleyhinə olan siyasi qüvvələrin ictimai-siyasi dəstəyinin yüksəlməsinə səbəb olmuşdur. Artan işsizlik, azalan əməkhaqqı səviyyəsi, artan gəlir bərabərsizliyi, sosial müdafiə xərclərinin azaldılması, yüksələn vergilər, dövlət maliyyəsinin pisləşən vəziyyəti həmin cəmiyyətlərin ictimai fikrində azad ticarət və immiqrasiya proseslərinə əks mövqeyi gücləndirmişdir. Qlobal iqtisadi inteqrasiya əleyhinə olan qüvvələrin siyasi təsir imkanlarının genişlənməsi isə ticarət məhdudiyyətlərinin (xüsusilə də, qeyri-tarif məhdudiyyətlərinin) artımının, "ticarət müharibələri", Breksit kimi qlobal iqtisadi əməkdaşlığı zəiflədən geopolitik hadisələrin ortaya çıxmasına səbəb olmuşdur. Qeyd olunan hadisələrin törətdiyi qlobal iqtisadi qeyri-müəyyənliklər və ziddiyətlər beynəlxalq iqtisadi inteqrasiya prosesləri üzərində mənfi təsir doğurmuşdur. Eləcə də, böhrandan sonra bankçılıq sahəsində yeni tətbiq edilən milli və beynəlxalq kriteriyalar beynəlxalq kapital hərəkətinin də zəifləməsinə səbəb olmuşdur. Burada təkcə bankların məruz qaldıqları yeni və nisbətən daha sərt tənzimləmə kriteriyaları yox, həm də banklar da daxil olmaqla, maliyyə institutlarının böhrandan sonra xarici fəaliyyətə meylinin zəifləməsi də rol oynamışdır. Maliyyə böhranı dövründə ciddi itkilərlə və iflas təhlükəsi ilə üzləşən bir sıra iri banklar yeni dövrdə riskləri məhdudlaşdırmaq üçün xarici əməliyyatlarını azaltmalı olmuşdular. Maliyyə böhranının beynəlxalq iqtisadi inteqrasiya proseslərinin yavaşlaması üzərində bilavasitə qalıcı təsirinin olmasına baxmayaraq, burada digər uzunmüddətli amillər də rol oynamışdır.

Beynəlxalq iqtisadi inteqrasiyanın inkişafında 2008-2009 maliyyə böhranından sonra başlayan yavaşlamanın qarşısını almaq və qlobal iqtisadi inteqrasiyanın möhkəmləndirilməsi üçün təmin edilməsi üçün inkluziv iqtisadi qloballaşmaya keçid zəruridir. İnkluziv iqtisadi qloballaşma dedikdə qlobal iqtisadi inteqrasiya səbəbindən yaranan müsbət təsirlərin ölkədaxilində müxtəlif sosial qruplar arasında və ölkələrarasında ədalətli qaydada bölüşdürülməsi nəzərdə tutulur. İnkluziv iqtisadi qloballaşma anlayışının bütün

təbəqələrin sosial rifahını nəzərə alması, bir qrupun rifahında baş verən geriləmə hesabına digər qrupun rifahının artmasının qarşısını alması onu daha dayanıqlı inteqrasiya prosesi edir. Daha öncə də qeyd edildiyi kimi, istər ölkələrarası ticarət münasibətləri, istərsə də maliyyə qloballaşması iqtisadi cəhətdən bir çox faydalar vəd etsə də, bu proseslərin gəlirlərin bölüşdürülməsi üzərində ciddi təsirləri vardır. Yəni, ölkələrarası ticarət, kapitalın hərəkəti bəzi qrupların rifahını artırsa da, bəzi qrupların rifahına mənfi təsir göstərə də bilir. Ölkələrarası ticarətin yaratdığı faydalar çox zaman ixrac sektoru ilə əlaqəli olan qruplar arasında konsentrasiya olur. Bu zaman idxal sektorları ilə əlaqəli olanlar isə burada itirən tərəflər kimi çıxış edirlər. İxrac sektorlarında olan şirkətlərin istehsalını və gəlirlərini böyütmək üçün imkanlar yaranır. Eləcə də, belə sektorlarda çalışanlar əmək gücünə tələb artır, yeni iş imkanları yaranır və nəticədə əməkhaqqı artımı baş verir. Ancaq idxal sektorlarında isə bu baş verənlərin əksi meydana çıxır. Şirkətlər üçün gəlir imkanı daralır, işçilər üçün iş yerləri azalır, əməkhaqqılar aşağı düşür. Bu baxımdan, iqtisadi inteqrasiyanın müxtəlif tərəflər üzərində doğura biləcəyi bu mənfi təsirləri nəzərə alaraq bir sıra siyasətlərlə onları kompensasiya etmək lazımdır.

Dissertasiya işinin **“2008-2009 qlobal maliyyə böhranından sonra beynəlxalq iqtisadi inteqrasiya proseslərinin təhlili”** adlanan ikinci fəslində 2008-2009 qlobal maliyyə böhranı və onun ortaya çıxma səbəbləri, böhranın beynəlxalq maliyyə inteqrasiyasına, qlobal ticarət inteqrasiyasına, ölkələrarası insan hərəkətinə təsirləri təhlil edilmişdir.

Böhranın qlobal maliyyə inteqrasiyasına təsirinə gəldikdə qeyd edə bilərik ki, qlobal maliyyə böhranı qlobal bankçılığın mövcud və gələcək şərtlərini əhəmiyyətli səviyyədə dəyişdirmişdir. Böhrana qədər bankların xarici ölkələrdəki fəaliyyəti sürətlə inkişaf edirdisə, böhrandan sonra bankların ölkələrarası fəaliyyətlərinin miqyası azalmış və onlar daxili bazar bazarlara daha çox diqqət yetirməyə başlamışlar. Post-böhran dövründə Kanada, Çin və Yaponiya kimi ölkələrdən olan banklar özlərinin xarici ölkələrdəki fəaliyyətlərini genişləndirsələrdə bu dövrdə qlobal səviyyədə beynəlxalq bankçılığın miqyasının geriləməsinin qarşısını almağa

yetərli olmamışdır. Bu prosesə xüsusilə təsir etmiş əsas amillər kimi maliyyə böhranının ortaya çıxmasından sonra qlobal bankçılıq fəaliyyətlərini tənzimlənməsində beynəlxalq və milli səviyyədə ortaya çıxan dəyişiklikləri, post-böhran dövrünün artan qeyri-müəyyənliklər və riskərini qeyd edə bilərik. Maliyyə böhranından sonra XBİ qoyuluşlarında da dəyişikliklər baş vermişdir.

Post-böhran dövründə beynəlxalq kapital axınları ilə bağlı əhəmiyyətli məqamlardan biri də son illər beynəlxalq bankçılıq fəaliyyətlərinin gerilməsi hesabına portfel borc bazarlarında baş verən yüksəliklə bağlı olmuşdur. Bu baxımdan yeni sənayeləşən ölkələrdə də potfel borc alətlərinin təklifinin və bu ölkələrin qiymətli kağızlar bazarında qeyri-rezidentlərin fəaliyyətinin artımına səbəb olmuşdur. Bundan başqa beynəlxalq investorlar tərəfindən ABŞ xəzinə istiqrazları və Almaniya istiqrazları kimi təhlükəsiz aktivlərə tələbin artması, bir sıra inkişaf etmiş ölkələrin mərkəzi bankları tərəfindən qeyri-ənənəvi monetar siyasətlər çərçivəsində bu formalı borc alətləri ehtiyatını artırması da portfel bazarlarının inkişafına səbəb olmuşdur. Ümumən 2007-2015-ci illər ərzində portfel borc alətlərinin xarici ölkələrdəki həcmi 6 trilyon dollar artmışdır. Yeni sənayeləşən və inkişaf etməkdə olan ölkələr üzrə portfel borc öhdəliklərinin ÜDM-ə nisbəti bu dövr ərzində 2 faiz yüksəlmişdir.[8]

Böhrandan sonra kapital axınlarının səviyyəsinin zəifləməsi həm də zəif makroiqtisadi və maliyyə şərtləri ilə əlaqəli olmuşdur. ÜDM-in zəif artımı, maliyyə risklərinin artımıı kapital tələbinə və təklifinə neqativ təsir göstərmişdir. Bundan başqa qlobal ticarət artımının zəif olması da xarici kapitala olan tələbin zəifləməsində əhəmiyyətli amillər sırasında olmuşdur. Beynəlxalq miqyasda fəaliyyət göstərən banklar da kapital mövqelərini yaxşılaşdırmaq məqsədilə kredit təklifinin səviyyəsini aşağı salmışlar. Ölkələr arası borc vermə bankların ən çox azaltdığı borc vermə formalarından biri olmuşdur. Beynəlxalq kapital hərəkətindəki 8.1 trilyon dollarlıq azalmanın 49 faizinə qədəri ölkələrarası borclanmanın və digər investisiya formalarının azalmasında ortaya çıxmışdır. Bu isə daha

[8] Lane, P.R., Milesi-Ferretti, G.M., (2008), The Drivers of Financial Globalization, Philip R. Lane, Gian Maria Milesi-Ferretti, IIIS Discussion Paper No. 238

çox iri Avropa və ABŞ banklarının beynəlxalq səviyyədə əməliyyatlarını azaltması ilə bağlı olmuşdur. Lakin daha öncə də qeyd edildiyi kimi böhran sonrakı dövrdə kapitalın beynəlxalq hərəkətinin bütün formalarında azalma müşahidə edilmişdir.

Cədvəl 1. Kapital hərəkətinin formaları üzrə dəyişiklik

| | 2000 | 2007 | 2016 |
|---|---|---|---|
| Ölkələrarası kapital hərəkəti | 3.8 trilyon dollar | 12.4 trilyon dollar | 4.3 trilyon dollar |
| XBİ | 1.4 trilyon dollar | 3.1 trilyon dollar | 1.6 trilyon dollar |
| Səhmlər | 0.6 trilyon dollar | 0.8 trilyon dollar | 0.3 trilyon dollar |
| Borc kağızları | 0.7 trilyon dollar | 2.8 trilyon dollar | 0.7 trilyon dollar |
| Borc vermə və digər investisiya formaları | 1.1 trilyon dollar | 5.7 trilyon dollar | 1.7 trilyon dollar |

Mənbə: Lund,S., Windhagen, E., Manyika, J., Härle, P., Woetzel, J., Goldshtein, D., (2017), The New Dynamics of Financial Globalization, McKinsey Global İnstitute

Qlobal maliyyə böhranının ticarət inteqrasiyasına təsiri ilə bağlı isə deyə bilərik ki, böhrandan sonra dövrdə qlobal əmtəə ticarətinin artım tempi kəskin şəkildə zəifləmişdir. Bu dövrdə artan qeyri müəyyənliklər, azalan idxal tələbi, zəif istehsal artımı, yüksələn ticarət məhdudlaşdırıcı siyasətlər, hətta son illər kəskinləşən ticarət münaqişələri qlobal ticarətin zəif artımına təsir göstərmişdir. Qlobal ticarətin illik artım səviyyəsi 2007-ciilədək bir neçə onillik orta hesabla 7 faiz olduğu halda, maliyyə böhranından sonra 2008-2014-cü illərdə 3 faiz, 2015-2016-cı illərdə isə daha da aşağı olmuşdur. 2016-cı ildən sonra da qlobal ticarətin böhrandan əvvəlki dövrdəki yüksək artım səviyyəsi müşahidə edilməmişdir. Qlobal ticarətin artımının böhran sonrakı dövrdə zəifləməsinə təsir göstərə biləcək amilləri tsiklik və struktur amillər kimi təsnifləşdirə bilərik. Tsiklik faktorlar maliyyə böhranının təsirilə ortaya çıxıb dünya ticarət

səviyyəsi üzərində yalnız qısa dövrdə təsirli ola bilən faktorlardır. Qlobal ticarət səviyyəsindəki zəifləmənin səbəbləri arasında uzun dövrdə də təsirli ola biləcək struktur dəyişiklikləri də qeyd edilməlidir. Bu yanaşmaya əsasən 1990-cı illərin ortalarından 2000-ci illərin ortalarına qədər qlobal ticarət inkişaf etməkdə olan ölkələrin qlobal iqtisadiyyata inteqrasiyasının dərinləşməsi, ticarət siyasətlərinin liberallaşması, texnoloji yüksəliş və qlobal dəyər zəncilərinin sürətli genişlənməsi prosesləri nəticəsində özünün yüksək sürətli artım dövrünü yaşamışdır. Lakin artıq bu proseslərin önəmli dərəcədə tamamlanması səbəbindən dünya ticarəti də əvvəlki dövrdəki yüksək səviyyəli böyümə səviyyəsinə nail ola bilmir. Bu baxımdan qlobal ticarət siyasətlərində və texnoloji səviyyədə hər hansı əhəmiyyətli dəyişikliklər olmadığı təqdirdə qlobal ticarətin zəif artımı davam edəcəkdir.

Maliyyə böhranının ortaya çıxmasından və qlobal ticarətin önəmli dərəcədə geriləməsindən sonra bir çox ölkələr müxtəlif ticarət alətlərindən aktiv şəkildə istifadə etməyə başlamışlar. Böhrana cavab olaraq ölkələr ticarət liberallaşdırıcı, ticarət dəstəkləyici və ticarət məhdudlaşdırıcı müxtəlif alətlərdən yararlanmışlar. Böhran dövründə daha çox müxtəlif sənaye sahələrinə ünvanlanmış dəstək siyasətlərindən və qeyri-tarif alətlərindən istifadə edilmişdir. Qlobal təklif zəncirlərinin geniş inkişafı bu dövrdə ölkələrin ənənəvi proteksionist siyasətlərdən istifadəsini məhdudlaşdırmışdır. Lakin ümumilikdə qlobal ticarət siyasətlərinin hesabatlarını təqdim edən bütün mənbələr böhrandan sonra proteksionizmin səviyyəsinin yüksəldiyini məlumat vermişlər. “Global Trade Alert” (GTA) təşkilatının 2015-ci ildə təqdim etdiyi hesabatda böhrandan sonrakı dövrdə proteksionizmin inkişafı üç mərhələyə ayrılmışdır [23, s.20]. Birinci mərhələ dünya üzrə 263 ticarət məhdudlaşdırıcı tədbirin təqdim edildiyi 2009-cu ilin birinci rübündən 2010-cu ilin üçüncü rübünədək olan dövrü əhatə etmişdir. Bu mərhələdə 2009-cu ilin birinci rübündə yeni proteksionist tədbirlərin sayı post-böhran dövründə ən yüksək səviyyədə müşahidə edilmiş, sonrakı rüblərdə isə tədricən azalma müşahidə edilmişdir. 2010-cu ilin 3-cü rübündən 2011-ci ilin dördüncü rübünədək olan ikinci mərhələdə hər rübdə orta hesabla 150-170 yeni ticarət məhdudlaşdırıcı tədbir təqdim

edilmişdir. Hesabatda proteksiomizmin üçüncü mərhələsi kimi 2011-ci ilin dördüncü rübündən sonrakı periodu göstərilmişdir. 2015-ci ilin sonunda böhran sonrakı dövrdə tətbiq edilən ticarət tədbirlərinin ümumi sayı 7000-dən çox olmuşdur.[9] 2016 və 2017-ci illərdə də proteksionist tədbirlərin səviyyəsində yüksəliş müşahidə edilmişdir. GTA 2017-ci ilin iyun ayında təqdim etdiyi hesabatda 2008-ci ilin noyabrından etibarən ölkələrarası iqtisadi fəaliyyətə təsir edə biləcək 11294 tədbirin həyata keçirildiyini göstərilmişdir. Ümumilikdə, maliyyə böhranın ortaya çıxmasından sonra qlobal proteksionizmin yüksəlişi baş vermişdir. 2016-cı ildə dünyanın ən böyük iqtisadiyyatlarından olan ABŞ-da proteksionist xarici ticarət siyasətini açıqca müdafiə edən Donald Trumpın prezident seçilməsi, bu administrasiyanın hakimiyyəti dövründə əsas ticarət partnoyları ilə ticarət münaqişələrinə qatılması isə qlobal proteksionizmin yeni mərhələyə qədəm qoymasına səbəb olmuşdur. Təbii ki, böhrandan sonrakı dövrdə yüksələn proteksionizmin qlobal ticarətin yavaşlamasına töhvə verməsi mümkündür. Lakin bəzi mənbələr böhran sonrakı proteksionizmin qlobal ticarət üzərindəki təsirinin zəif olduğunu iddia edirlər. Kanada Mərkəzi Bankının apardığı tədqiqat göstərir ki, 2008-2014-cü illər arasında G20 ölkələrinin təqdim etdiyi məhdudlaşdırıcı addımların səviyyəsi 1000-ə çataraq G20 ticarətinin 5 faizinə neqativ təsir göstərmişdir.[10]

Böhrandan sonra ÜDM-in komponentləri üzrə baş verən dəyişikliklər də ticarətin zəif artımına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. İnvestisiya həmişə ÜDM-in ən idxal intensiv komponenti hesab edilmişdir. Bu dövrdə investisiya səviyyəsində zəif inkişaf dünya ticarətinin də artım tempinin geriləməsində əsas amil kimi göstərilir.[11] İnvestisiyanın digər ÜDM komponentləri ilə müqayisədə daha çox idxal tərkibi istifadə etməsi digər başqa

---

[9] Evenett, S.J., Fritz, J., (2015), The Tide Turns? Trade, Protectionism, and Slowing Global Growth, The 18th Global Trade Alert Report, CEPR Press

[10] Francis, M., Mor, L., (2015), “The slowdown in Global trade”, Bank of Canada Review

[11] Bussière, M., Callegari, G., Ghironi, F., Sestieri, G., Yamano, N., (2013), “Estimating Trade Elasticities: Demand Composition and the Trade Collapse of 2008-2009”, American Economic Journal: Macroeconomics, Vol.5, No.3, p.118-51

tədqiqatlar tərəfindən də təsdiqlənmişdir. 2015-ci ildə 43 ölkə və 2000-2014-cü illər üzrə aparılan tədqiqat investisiya səviyyəsində idxal tərkibinin (35 faiz) fərdi istehlak və dövlət xərcləmələrindən çox daha yüksək olduğunu göstərmişdir.[12] Qlobal maliyyə böhranı investisiya qoyuluşlarında, xüsusən də mənzil tikintisinə investisiyalarda çöküşə səbəb olmuşdur. Böhran sonrakı illərdə də dünya üzrə investisiya xərcləmələrində artım böhrandan öncəki dövrlə müqayisədə zəif olmuşdur. Post-böhran dövründə investisiya xərcləmələrindəki bu zəif inkişaf öz növbəsində dünya ticarəti üzərində də təsirli olmuşdur. Böhrandan sonra inkişaf etmiş ölkələrin əksərində məcmu daxili investisiyanın ÜDM-də payı böhrandan öncəki dövrlə müqayisədə önəmli dərəcədə aşağı olmuşdur. Daxili investisiya qoyuluşları dünya ticarətinin təxminən üçdə birinin pay sahibi olan Avropa Birliyində isə xüsusilə zəif olmuşdur. Qeyd edək ki, bəzi inkişaf etməkdə olan ölkələrdə investisiya qoyuluşlarınının yüksələn həcmi inkişaf etmiş ölkələrdəki zəifləməni kompensasiya etmişdir. Lakin həmin ölkələrin qlobal idxal həcmindəki payları inkişaf etmiş ölkələrlə müqayisədə zəif olduğundan qlobal ticarətin zəifləməsinin qarşısını ala bilməmişdir. İnvestisiya qoyuluşlarının zəif olmasına təsir göstərən müxtəlif faktorlar arasında zəif qlobal tələb amili də qeyd edilməlidir. Ölkələrin iqtisadi artım səviyyələrində və iqtisadi siyasət istiqamətlərində qeyri-müəyyənlik şirkətlərə investisiya xərcləmələrini təxirə salmağa vadar etmişdir.

Qlobal maliyyə böhranı beynəlxalq miqrasiya üzərində də təsirlər göstərmişdir. 2008-2009 qlobal böhranına qədər də iqtisadi və maliyyə böhranlarının beynəlxalq miqrasiya prosesləri və siyasətləri üzərindəki təsiri ortaya çıxmışdır. Lakin qeyd edək ki, qlobal resessiya dövründə miqrasiya axınlarının zəifləməsinə baxmayaraq beynəlxalq immiqrant stoku 2000-ci ildən etibarən davamlı artaraq 2010-cu ildə 220 milyon, 2015-ci ildə 248 milyon, 2017-ci ildə isə 258 milyon nəfər olmuşdur. 2000-2005-ci illər arasında beynəlxalq immiqrant stokunda artım orta hesabla ildə 2 faiz, 2005-2010-cu illərdə orta hesabla ildə 2.9 faiz, 2010-2015-ci

[12] Wozniak, P., Galar, M., (2018), "Understanding the Weakness in Global Trade" , European Economy ECONOMIC BRIEF 033

illərdə orta hesabla 2.4 faiz, 2015-2017-ci illərdə isə orta hesabla 2 faiz səviyyəsində olmuşdur. Göründüyü kimi böhrandan sonrakı dövrdə qlobal olaraq immiqrant stokunda artım davam etsə də bu hələki öncəki dövrlərlə müqayisədə getdikcə zəifləməkdədir. 2017-ci ildə qlobal olaraq miqrantların təxminən üçdə ikisi (64 faizi) yüksək gəlirli ölkələrdə məskunlaşmışlar. Həmin ildə cəmi miqrantların 36 faizi isə orta və aşağı gəlirli ölkələrdə yaşamışlar.

Dissertasiya işinin **"2008-2009 qlobal maliyyə böhranının beynəlxalq iqtisadi inteqrasiya prosesləri üzərindəki təsirinin empirik qiymətləndirilməsi"** adlanan üçüncü fəslində irəli sürülən hipotezin empirik qiymətləndirilməsi və onun nəticələri təqdim edilmişir.

Tədqiqatın bu hissəsində qlobal maliyyə böhranının beynəlxalq maliyyə və ticarət inteqrasiyası üzərindəki təsirinin empirik qiymətləndirilməsi üçün aşağıdakı iki panel data modeli müəyyən edilmişdir:

$Mİ_{it}=\alpha_{oi}+\alpha_{1i}MT_{it}+\alpha_{2i}Tİ_{it}+\alpha_{3i}İA_{it}+\alpha_{4i}Böhran_{it}+u_{it}$ , i=1,…,N; t=1,…,T

$Tİ_{it}=\alpha_{oi}+\alpha_{1i}Mİ_{it}+\alpha_{2i}İA_{it}+\alpha_{3i}Böhran_{it}+u_{it}$,i=1,…,N; t=1,…,T

Burada "Mİ" maliyyə inteqrasiyasının səviyyəsini, "MT" ölkənin kapital axınlarını tənzimləmə siyasətlərini, "Tİ" ölkələrin ticarət inteqrasiyasının səviyyəsini, "İA" ÜDM-in artım səviyyəsini, "Böhran" isə 2008-2009 qlobal maliyyə böhranını, $u_t$ isə qiymətləndirmənin xəta payını ifadə edir. Qiymətləndirmələr 41 ölkə üçün 2000-2016-cı illərin məlumatlarının əhatə edilməsi ilə həyata keçirilmişdir.

Ümumilikdə qiymətləndirmə nəticələri göstərir ki, böhranın maliyyə inteqrasiyası üzərindəki təsiri dərhal baş versə də, ticarət inteqrasiyasına gecikməli təsir göstərmişdir. Və böhran qısa dövrdə ticarət inteqrasiyasının səviyyəsi üzərində maliyyə inteqrasiyasına nəzərən daha yüksək neqativ təsir göstərmişdir. Eyni zamanda, böhranın hər iki beynəlxalq iqtisadi inteqrasiya prosesi üzərində təsiri qısa dövrlə məhdudlaşmamış, uzun dövrdə də davam etmişdir. Uzun dövrdə böhranın qlobal maliyyə inteqrasiyası üzərindəki neqativ təsiri qlobal ticarət inteqrasiyası üzərindəki təsirindən daha yüksək olmuşdur.

Öncəki fəsildə qeyd edildiyi kimi 2008-2009-cu il maliyyə böhranın meydana çıxmasından sonra dünya üzrə proteksionist siyasətlərdən istifadənin miqyası kəskin şəkildə artmırşdır. Tətbiq edilən bu proteksionist siyasətlərin əksəriyyəti də “G20” (dünyanın ən böyük 20 iqtisadiyyatı) iqtisadiyyatları tərəfindən həyata keçirilmişdir. Bu ölkələr dünyanın ən böyük iqtisadiyyatları olmaqla yanaşı, dünya ticarətinin də önəmli pay sahibidirlər. Bu ölkələr bir yerdə dünya istehsalının 85 faizinin, dünya ticarətinin isə 75 faizinin pay sahibidirlər. Maliyyə böhranından sonra tətbiq edilən ticarət məhdudlaşdırıcı siyasətlərlə bağlı ortaya çıxan suallardan biri də bu siyasətlərin ölkələrin iqtisadi böyümə tempinə necə təsir göstərməsidir. Disertasiyanın 3-cü fəslində maliyyə böhranından sonra tətbiq edilən proteksionist siyasətlərin təsirləri ilə bağlı “G20” üzvü olan 19 ölkənin məlumatlarına qiymətləndirmələr aparılmışdır. Qiymətləndirmələr 3 əsas suala cavab vermək məqsədi daşımışdır:

1. Tətbiq edilən proteksionist siyasətlər iqtisadi böyümə templəri üzərində nə kimi təsir doğurmuşdur?
2. Tətbiq edilən proteksionist siyasətlər idxal artımı səviyyəsi üzərində təsir göstərmişdirmi?
3. Tətbiq edilən proteksionist siyasətlər “G20” ölkələrinin idxal istiqamətlərinə necə təsir göstərmişdir?

“G20” ölkələrinin qlobal maliyyə böhranından sonra tətbiq etdikləri proteksionist siyasətlərin təsirləri ilə bağlı aparılan qiymətləndirmələrin nəticələrini ümumiləşdirərək aşağıdakıları qeyd edə bilərik:

- “G20” ölkələri tərəfindən böhrana cavab olaraq tətbiq edilmiş proteksionist ticarət siyasətləri həmin ölkələrin iqtisadi böyümə səviyyəsi üzərində neqativ təsir doğurmuşdur. Ancaq bu dövrdə tətbiq edilən liberallaşdırıcı siyasətlər iqtisadi böyümə səviyyəsi üzərində müsbət təsir doğurmuşdur.
- “G20” ölkələri tərəfindən böhrana cavab olaraq tətbiq edilmiş proteksionist ticarət siyasətlərinin onların illik idxal artımı göstəricisi üzərində statistik olaraq əhəmiyyətli təsiri olmamışdır. Ancaq liberallaşdırıcı siyasətlərin idxalın artım faizi üzərində müsbət təsiri statistik olaraq əhəmiyyətli olmuşdur.

- “G20” ölkələri tərəfindən tətbiq edilən proteksionist siyasətlər idxalın artımına təsir göstərməsə də, idxal istiqamətləri üzərində təsirli olmuşdur. Tətbi edilən proteksionist siyasətlər yüksək gəlirli ölkələrdən edilən idxalın payına mənfi təsir göstərmişdir. Eləcə də, bu siyasətlər Avropa və Mərkəzi Asiyanın, eləcə də Şimali Afrika və Orta Şərqin aşağı və orta gəlirli ölkələrindən edilən idxalına payı üzərində mənfi təsiri olmuşdur. Tətbiq edilən diskriminativ siyasətlər Cənubi Asiya regionundan edilən idxalın payına mənfi təsir göstərsə də, qiymətləndirmə nəticələri bu təsirin statistik nöqteyi-nəzərdən az əhəmiyyətli olduğunu irəli sürür.

- Tətbiq edilən proteksionist siyasətlər Şərqi Asiya və Sakit Okeanı regionundan olan aşağı və orta gəlirli ölkələrdən edilən idxalın payı üzərində müsbət təsirinin olduğu görünmüşdür.

**Dissertasiyanın “Nəticə və təkliflər” bölməsində tədqiqatın nəticələri və eləcə də onlardan irəli gələn elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr yer almışdır:**

Böyük Ressesiyanın ortaya çıxardığı iqtisadi təlatümlər və böhranın doğru idarə edilməməsi, bir çox ölkələrdə, ancaq xüsusilə inkişaf etmiş ölkələrdə beynəlxalq iqtisadi inteqrasiya əleyhinə olan qüvvələrin ictimai-siyasi dəstəyinin yüksəlməsinə səbəb olmuşdur. Böhrandan sonra artan işsizlik, azalan real əməkhaqqı səviyyəsi, gəlir bərabərsizliyi, sosial müdafiə xərclərinin azaldılması, yüksələn vergilər, dövlət maliyyəsinin pisləşən vəziyyəti həmin cəmiyyətlərin ictimai fikrində azad ticarət və immiqrasiya proseslərinə əks mövqeyi gücləndirmişdir. Qlobal iqtisadi inteqrasiya əleyhinə olan qüvvələrin təsir imkanlarının genişlənməsi isə ticarət proteksionizminin yüksəlişinə, daha az sayda azad ticarət sazişlərinin bağlanmasına və liberallaşdırıcı siyasətlərin tətbiqinə, eləcə də ticarət müharibələrinə yol açmışdır. Qeyd olunan hadisələrin törətdiyi qlobal iqtisadi qeyri-müəyyənliklər və ziddiyətlər beynəlxalq iqtisadi inteqrasiya prosesləri üzərində mənfi təsir doğurmuşdur.

Aparılan qiymətləndirmələr göstərir ki, 2008-2009 qlobal maliyyə böhranından sonra beynəlxalq iqtisadi inteqrasiya proseslərinin inkişafı əhəmiyyətli dərəcədə zəifləmişdir. Qlobal maliyyə böhranından sonra dünya üzrə ticarəti məhdudlaşdıran

proteksionist siyasətlərdən istifadənin miqyası kəskin şəkildə artmışdır. Böhrandan sonrakı hər il tətbiq edilən proteksionist siyasətlərin sayı liberallaşdırıcı siyasətlərin sayından çox olmuşdur. Aparılan tədqiqat göstərir ki, maliyyə böhranından sonra ölkələrarası kapital axınlarının bütün formaları üzrə geriləmə ortaya çıxmışdır. Bu qlobal maliyyə inteqrasiyası prosesinin inkişaf tempinin böhrandan öncəki dövrlə müqayisədə əhəmiyyətli dərəcədə zəiflədiyini göstərir. Buna baxmayaraq, qlobal maliyyə inteqrasiyası hələ də yüksək olmaqda davam edir. Böhrandan sonrakı dövrdə dünya üzrə immiqrantların mütləq sayında artım davam etsə də, bu artım tempi də öncəki dövrlərlə müqayisədə getdikcə zəifləməkdə olmuşdur.

Tədqiqat zamanı həyata keçirilən reqressiya qiymətləndirmələri böhranın beynəlxalq iqtisadi inteqrasiya prosesləri üzərindəki qalıcı mənfi təsiri olduğunu təsdiqləmişdir. Burada 2008-2009 maliyyə böhranının beynəlxalq ticarət inteqrasiyası üzərində həm qısa dövrdə, həm də uzun dövrdə mənfi təsir göstərdiyi məlum olmuşdur. Maliyyə böhranının beynəlxalq maliyyə inteqrasiyası üzərində də həm qısa dövrdə, həm də uzun dövrdə mənfi təsir göstərdiyi məlum olmuşdur. Böhranın həm maliyyə inteqrasiyası, həm də ticarət inteqrasiyası üzərindəki mənfi təsiri uzun dövrdə qısa dövrlə müqayisədə daha kəskin olmuşdur.

Tədqiqat müəyyən etmişdir ki, böhrandan sonrakı dövrdə tətbiqi artan proteksionist siyasətlərin iqtisadi böyümə templəri üzərində mənfi təsiri olmuşdur. Digər tərəfdən tətbiq edilmiş liberallaşdırıcı ticarət siyasətlərinin isə iqtisadi böyümə üzərində müsbət təsiri olmuşdur. Bu baxımdan böhrandan sonrakı dövrlərdə ölkələrin proteksionist siyasətlərə yönəlməsinin əslində böhranın yaratdığı iqtisadi çətinlikləri daha da pisləşdirdiyini qeyd etmək lazımdır. “G20” iqtisadiyyatlarının nümunəsində aparılan bu qiymətləndirmə böhrandan sonra iqtisadi böyümə tempinin sürətləndirilməsi üçün proteksionizmin məhdudlaşdırılması, liberallaşdırıcı siyasətlərin isə artırılmalı olduğunu irəli sürür.

Tədqiqat zamanı müəyyən edilmişdir ki, böhrandan sonra zəif qlobal ticarətin başlıca səbəbləri zəif iqtisadi böyümə templəri və liberallaşdırıcı siyasətlərin azlığı olmuşdur. Yüksələn

proteksionizmin qlobal ticarətin zəifləməsində əhəmiyyətli təsir göstərmədiyi müəyyən edilmişdir. Ancaq böhran sonrakı dövrdə tətbiq edilən proteksionist siyasətlər ticarət xətlərinə təsir göstərmişdir. Qiymətləndirmə nəticələri göstərmişdir ki, "G20" iqtisadiyyatları tərəfindən 2009-2020-ci illər arasında tətbiq edilən proteksionist siyasətlər bu ölkələrin yüksək gəlirli ölkələrdən etdiyi idxalın payının azalmasına təsir göstərmişdir. Proteksionist siyasətlər həm də Avropa və Mərkəzi Asiya, Şimali Afrika və Orta Şərq, Cənubi Asiya regionlarının aşağı və orta gəlirli ölkələrindən edilən idxalın payı üzərində də mənfi təsir göstərmişdir. Lakin, post-böhran dövründə tətbiq edilən proteksionist siyasətlər "G20" iqtisadiyyatlarının Şərqi Asiya və Sakit Okeanı regionunun aşağı və orta gəlirli ölkələrindən etdiyi idxalın payı üzərində müsbət təsir göstərmişdir.

Tədqiqatda meydana çıxan nəticələrə uyğun olaraq aşağıdakı təkliflər irəli sürülmüşdür:

- Beynəlxalq iqtisadi inteqrasiyanın dayanıqlı inkişafının təmin edilməsi və proteksionist yüksəlişin qarşısının alınması üçün üçün inkluziv iqtisadi qloballaşmaya keçid zəruridir. İnkluziv iqtisadi qloballaşma anlayışının bütün təbəqələrin sosial rifahını nəzərə alması, bir qrupun rifahında baş verən geriləmə hesabına digər qrupun rifahının artmasının qarşısını alması onu daha dayanıqlı inteqrasiya prosesi edir.
- Böhrandan sonra daha çox ticarət məhdudlaşdırıcı siyasətlərin tətbiq edilməsi iqtisadi böyümə səviyyələri üzərində mənfi təsir göstərdiyindən, böhranlardan sonra iqtisadi böyümənin daha sürətli bərpası üçün bu kimi siyasətlərin yüksək miqyaslı tətbiqindən çəkinmək lazımdır.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Abbasov, A., Pooled Mean Group Approach to Test the Determinants of Financial Integration: Evidence From OECD and G20 Countries, Research in World Economy, Vol 10, No 3, 2019, pp. 366-370
2. Abbasov, Ə., Böyük Ressesiyadan sonra qlobal maliyyə inteqrasiyası, Azərbaycanın Vergi Jurnalı, № 1, 2019, səh. 97-108
3. Abbasov, Ə., 2008-2009 qlobal maliyyə böhranından sonra qlobal ticarət niyə zəifləmişdir?, Azərbaycanın Vergi Jurnalı, № 2, 2018, səh. 99-110
4. Abbasov, Ə., 2008-2009 qlobal maliyyə böhranından sonra iqtisadi qloballaşma, Azərbaycanın Vergi Jurnalı, № 1, 2020, səh. 91-100
5. Abbasov, Ə., 2008-2009-cu il maliyyə böhranının iqtisadi millətçiliyin yüksəlməsinə təsiri, UNEC Elmi Xəbərləri, İl 8, Cild 8, aprel-iyun, 2020, səh. 112 – 122
6. Abbasov, A., Testing the Impact of Global Financial Crisis on Global Trade Integration, Book of Proceedings of 51st International Scientific Conference on Economic and Social Development – Rabat, 26-27 March 2020, pp. 624-631
7. Abbasov, A., Empirical Analysis of the Impact of 2008-2009 Economic Crisis on Immigration Tendencies: Case Of OECD Countries, Book of Proceedings of 37th International Scientific Conference on Economic and Social Development – "Socio Economic Problems of Sustainable Development", Baku, 14-15 February 2019, pp.764-772
8. Abbasov, Ə., Post-böhran dövründə qlobal ticarət inteqrasiyasının təhlili, Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransı, 2018

Dissertasiyanın müdafiəsi “24” noyabr 2023-cü il tarixdə saat $14:^{00}$-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunda fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat “21” oktyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.10.2023
Format: 60x84 16\1
Həcmi:38887
Tiraj 100